2017-ci ilin yanvar-noyabr aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 916390 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 0,3 faiz çoxdur. Tikinti-quraşdırma işlərinə qoyulan investisiyanın dəyəri əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,5 faiz artaraq 845790 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş investisiyanın 92,3 faizini təşkil edir.

2017-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikada tikinti sahəsində 12895 nəfər işçi çalışmışdır ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2016-cı ilin müvafiq dövrünə nisbətən 2,8 faiz artaraq 474,9 manat olmuşdur.